# Azərbaycanın hərbi qüdrətini artırması bədxahlarımızda qorxu hissi yaradır

***Hazırkı geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan qardaş Türkiyə ilə münasibətlərin daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərəfidir. Bu, özünü bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə göstərir. Təhlükəsizliyinin qayğısına qalmaq hər bir müstəqil, suveren dövlətin təbii haqqıdır. Məlum olduğu kimi, hərbi-texniki əməkdaşlığın inkişafına təkan verən önəmli amillərdən biri də orduların birgə təlimlərinin keçirilməsidir.***



İndiyədək Azərbaycan və Türkiyə silahlı qüvvələri heç bir başqa dövlətin maraqlarını təhdid etməyən çox sayda birgə təlimlər keçiriblər. Buna misal olaraq “EFES”, “Anadolu Ankası”, “Qış təlimi”, “Anadolu ulduzu”, “Erciyes- 2019”, “Anadolu qartalı”, “Mustafa Kamal Atatürk”, “Sarsılmaz qardaşlıq”, “TurAz Qartalı - 2019”, “TurAz Qartalı – 2020” və “Heydər Əliyev – 2020” təlimlərini göstərmək olar. Bununla yanaşı, Bakıda 2014-cü ildə “ADEX-2014”, 2016-cı ildə “ADEX-2016”, ”2018-ci ildə “ADEX-2018” və İstanbulda 2017-ci ildə “İDEF-2017”, 2019-cu ildə “İDEF-2019” və 2021-ci ildə “IDEF - 2021” beynəlxalq müdafiə sənayesi sərgilərinin təşkili hər iki ölkə arasında hərbi-texniki əməkdaşlığın inkişafına təkan verib.

Bu baxımdan, 2020-ci il iyul ayının sonundan Azərbaycanda başlayan genişmiqyaslı Türkiyə Hərbi Hava Qüvvələrinin “TurAz Qartalı – 2020” birgə taktiki-uçuş təlimləri təkcə Azərbaycan Ordusunun güclənməsinə deyil, eyni zamanda, bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına yönəlmişdi. Hazırda “TurAz Şahini – 2021” birgə təlimləri davam edir. Taktiki-uçuş təlimlərinin planına əsasən, Azərbaycanın və qardaş Türkiyə Respublikasının döyüş təyyarələri əməliyyat uçuşları yerinə yetiriblər. Müdafiə Nazirliyindən bildirildiyinə görə, təlimlərdə hər iki ölkənin hərbi hava qüvvələrinin iştirakı ilə birgə əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyətin və fərqli xüsusiyyətlərə malik döyüş təyyarələri arasında rabitə əlaqəsinin uzlaşdırılması imkanları öyrənilir. Eyni zamanda, havadan zərbələr endirməklə şərti düşmənin hava hücumundan müdafiə vasitələri və hərbi təyinatlı strateji obyektlərinin məhv edilməsi, o cümlədən, yaxın hava döyüşü və digər tapşırıqlar müvəffəqiyyətlə icra olunur. Təlimlər bir neçə gün də davam edəcək.

Bildiyimiz kimi, iki qardaş ölkənin dövlət başçıları tərəfdaşlıq istiqamətində ictimai-siyasi fəaliyyətləri ilə hər zaman vahid platformadan çıxış ediblər. Onların bu xüsusda qətiyyətli və prinsipial mövqeyə malik olmaları bütün dünyaya bəllidir. Biz bunun Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti yürütdüyü bütün zamanlarda, konkret olaraq, düşmənin sentyabrın 27-dən başlanan hərbi təcavüzünə cavab olaraq Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azəbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatlarında, II Qarabağ müharibəsi günlərində də şahidi olduq.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev bu barədə fikirlərini aydın şəkildə ifadə edib: “Biz uzun illər sürən işğala son qoyduq. Türkiyə kimi qardaşımızın yanımızda olması bizi daha da ruhlandırırdı, bizə əlavə güc verirdi. Biz gücdən istifadə edərək öz tarixi torpaqlarımızı işğalçılardan azad etdik”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da analoji fikrini tam qətiyyətlə bildirib: ”Türkiyə qədim dostluq bağları və qardaşlıq əlaqələrinin olduğu Azərbaycanın haqq və hüququnun müdafiəsi, torpaqlarına qarşı yönələn təcavüzün qarşısının alınmasında tərəddüd etməyəcək. Bütün imkanlarımızla dost və qardaş Azərbaycanın yanındayıq və yanında olmaqda davam edəcəyik... Ermənistanın Azərbaycana qarşı hücumları zamanı azərbaycanlı qardaşlarımızı tək buraxmadıq, buraxmayacağıq. Türkiyə qardaş Azərbaycana sona qədər öz dəstəyini verəcək”.

İftixar hissi ilə xatırladaq ki, böyük qələbədən sonra Bakıda keçirilən Zəfər paradında qardaş ölkənin dövlət başçısı da yaxından iştirak etmişdir. İşğaldan azad edilmiş Şuşa şəhərində imzalanan birgə müttəfiqlik Bəyannaməsində iki dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətləri daha da konkretləşdirilib. Bu tarixi sənəddə bir çox məsələlər – beynəlxalq müstəvidə birgə əməkdaşlıq, xüsusilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır.

“Beynəlxalq sərhədləri çərçivəsindəki ərazisində müxtəlif təlimlər keçirmək hər bir dövlətin suveren hüququdur”. – Bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib. O bildirib ki, Azərbaycan bu günədək ərazisində çoxsaylı hərbi təlimlər, o cümlədən tərəfdaş ölkələrin iştirakı ilə birgə təlimlər keçirib. Ötən günlərdə Laçın rayonunda başlanılan birgə taktiki təlim də məhz bu qəbildən olan və bölgədə sabitliyin təmin olunmasına xidmət edən addımdır.

Açıqlamada həmin təlimi, guya, Ermənistan üçün təhlükə sayan təcavüzkar qonşu dövlətin xarici işlər nazirliyinin diqqətinə çatdırılıb ki, regional sülhə və təhlükəsizliyə təhdid dövlətin öz ərazisində hərbi təlim keçirməsi yox, Ermənistanın uzun illər ərzində tətbiq etdiyi kimi, digər dövlətin ərazilərinə iddialar irəli sürmək, hərbi təcavüz siyasəti yürütmək, digər dövlətin ərazilərini işğal altında saxlamaq və nəhayət, beynəlxalq hüququn prinsiplərini tapdalamaqdır. Bütün bunlar isə bizə deyil, məhz Ermənistana xas olan mənfi cəhətlərdir. Əgər Ermənistan bölgədə sülh və təhlükəsizliyin təmin olunmasını istəyirsə, o zaman özünün də imza atdığı öhdəliklərin icrasına riayət etməlidir. Daha heç bir əsas olmadan bu ölkənin XİN-i adından, guya, Laçın rayonunda Azərbaycan və Türkiyə birgə təlimlərinin keçirilməsinin 10 noyabr 2020-ci il tarixli bəyanatına uyğun olmadığı, sülh və təhlükəsizliyə xələl gətirdiyi iddia edilməməlidir.

Bəs, bizdən fərqli olaraq, öz ərazisində başqa ölkənin hərbi bazasının olması və dislokasiyasının üzü Azərbaycana tərəf dəyişdirilməsi cəhdləri, sərhədlərinin qorunmasına xarici qüvvələrin cəlb edilməsi, hətta Qarabağda qondarma rejim tör-töküntülərinin silahlıları ilə birgə hərbi təlimlərin keçirilməsi nə deməkdir? O, olar, bu olmaz? Burada istər-istəməz “Adımı sənə qoyum, səni də yana-yana...” məsəli yada düşür.

Biz beynəlxalq miqyasda hərbi-texniki əməkdaşlığın müasir çağırışlarına uyğun olaraq, öz ərazilərimizdə hərbçilərin peşə hazırlığının yüksəldilməsini nəzərdə tutan təlimlər keçirməkdə bundan sonra da qərarlıyıq və heç kəs buna mane ola bilməz. Kimə nə qalıb ki, bu günlərdə Azərbaycan və Türkiyə Respublikalarının sualtı hücum və sualtı müdafiə qruplarının iştirak etdiyi birgə təlim-məşqləri keçirilib və növbəti mərhələnin tapşırıqları icra olunub. Məgər aranı qatmaqdan ötrü suveren dövlətlərin daxili işlərinəmi qarışmaq lazımdır? Axı, burada nə siyasi, nə də hüquqi məntiq var.

Sözügedən təlimlərə qayıdaq. Növbəti mərhələdə Xəzər dənizinin Azərbaycana məxsus sektorunda şərti terrorçu qrup tərəfindən zəbt edilən gəmidə onların zərərsizləşdirilməsi və gəminin azad edilməsi tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilib. Helikopter və katerlərin cəlb olunması ilə keçirilən təlimin növbəti mərhələsində qarşıya qoyulan tapşırıqları iki qardaş ölkənin xüsusi təyinatlıları yüksək peşəkarlıq nümayiş etdirərək dəqiq və effektiv icra ediblər. Əlbəttə, bu, kimin üçünsə fərəhli, kimin üçünsə də qıcıqlandırıcı faktdır.

Onu da xatırladaq ki, bu yaxınlarda Türkiyə Yüksək Hərbi Şurasının toplantısı keçirilib və qərarla Azərbaycanda yaradılan Xidmət Qrupu Komandanlığına 4 general təyin edilib. Onlar Quru Qoşunlarının əməliyyat üzrə rəisi, general-mayor Bəxtiyar Ersay, generallar Abdulla Qatırçı, Ender Güner və Türkiyə Silahlı Qüvvələrinin Bakıdakı yeni hərbi atteşesi, general Zəkəriyyə Yalçındır. Deməli, hərbi-texniki əməkdaşlıq daha mütəşəkkil məzmun almaqdadır.

Qeyd etmək yerinə düşər ki, bundan əvvəl də Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik planlara uyğun olaraq, dəfələrlə ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilib. Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilir. Məsələn, iki qardaş ölkə arasında bağlanmış əməkdaşlıq haqqında sazişə əsasən, iyunun 28-dən Bakıda “Mustafa Kamal Atatürk - 2021” birgə döyüş atışlı taktiki təlimi uğurla keçib. Təlimin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi olub. Əgər bu, kiminsə yuxusuna haram qatırsa, problemi özündə axtarsın.

Azərbaycan digər ölkələrlə birlikdə keçirilən beynəlxalq hərbi təlimlərdə də iştirak edir və bu, kimsəni qıcıqlandırmamalıdır. Məsələn, ayyarım öncə Gürcüstanda təşkil olunan ənənəvi “Agile Spirit” (Çevik ruh”), həmçinin “See breeze” (“Dəniz küləyi”) kimi təlimlər bu qəbildəndir. Erməniləri qıcıqlandıran bir məqam da odur ki, onların ordusu köhnə və xarab silahlarla təchiz olunub və beynəlxalq hərbi təlimlərə nə dəvət alırlar, nə də meydana çıxarmalı bir şeyləri var. Düçar olduqları xəstəliyə isə xroniki siyasi infantilizm diaqnozu qoyulsa, əminik ki, dəqiq olar.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***